İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin
İdarə Heyətinin “21“ “yanvar ” 2020-ci il
tarixli “2” nömrəli Qərarı ilə təsdiq
edilmişdir.

# “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası

## 1. Qaydanın məqsədi və əhatə dairəsi

1.1. Bu Qaydanın məqsədi “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin (bundan sonra - TƏBİB) tabeliyindəki tibb müəssisələrində (bundan sonra - tibb müəssisələri) çalışan səhiyyə işçilərinin (bundan sonra – səhiyyə işçiləri) layiqli həyat səviyyəsinə uyğun əmək haqqı ilə təmin edilməsi, peşəkarlığının və səriştələrinin yüksəldilməsinə maraqlarının artırılması, səhiyyə işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və ölçülməsi əsasında əməyinin ödəniş sisteminin tənzimlənməsidir.

1.2. Bu Qayda səhiyyə işçilərinin əməyinin ödənilməsinin ümumi qaydalarını, şərtlərini və məbləğlərini müəyyən edir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilən mənaları ifadə edir.

1.4. Bu Qaydadan fərqli əmək haqqı sisteminin tətbiq edilməsi Agentliyin İdarə Heyətinin qərarı ilə tibb müəssisəsinin Agentliyə maliyyə-iqtisadi əsaslandırma ilə rəsmi müraciəti əsasında müəyyən edilə bilər.

## 2. Əməyin ödənilməsi sisteminin prinsipləri

2.1. Səhiyyə işçilərinin əməyinin ödəniş sistemi aşağıdakı prinsiplərə əsaslanır:

2.1.1. **qanunun aliliyi** – əməyin ödəniş sistemində səhiyyə işçilərinin Əmək Məcəlləsinə və digər normativ hüquqi aktların aidiyyəti müddəalarına əsasən müəyyən edilməsi;

2.1.2. **ədalətlilik** – bərabər rəftar və imkanların yaradılması məqsədilə səhiyyə işçilərinin əməyinin ödəniş sistemində vahid prinsip və normalar əsasında tənzimlənməsi;

2.1.3. **şəffaflıq** – əməyin ödəniş sistemi üzrə səhiyyə işçilərinin əmək haqlarının müəyyən edilməsi qaydasının və bu sahədə onun hüquqlarının ictimaiyyətə açıq olması;

2.1.4. **rəqabət qabiliyyətlilik** – səhiyyə işçilərinin əmək haqqı səviyyəsinin özəl sektorda müqayisə edilə bilən analoji kateqoriya vəzifələrinin əmək haqqı səviyyələri ilə balanslaşdırılması;

2.1.5. **mütənasiblik** – səhiyyə işçilərinin əmək haqlarının tutduqları vəzifəyə, staja və xidməti fəaliyyətinin qiymətləndirilməsinə uyğun olaraq müəyyən edilməsi.

## 3. Əməyin ödənilməsi sisteminin tətbiqi və idarə edilməsi

Səhiyyə işçilərinin əmək haqları könüllü və icbari tibbi sığorta sistemindən daxil olan vəsaitlər, Azərbaycan Respublikasının dövlət büdcəsi və ya yerli büdcə, büdcədənkənar vəsaitlər, hüquqi və fiziki şəxslərin gəlirlərindən könüllü ayırmalar, hüquqi və fiziki şəxslərin ianələri və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

## 4. Əmək haqqının tərkibi

4.1. Bu Qaydanın 3-cü hissəsində müəyyən edilmiş vəsaitlər hesabına səhiyyə işçisinin əmək haqqına aşağıdakılar daxildir:

4.1.1. tutduğu vəzifədən, stajından və xidməti fəaliyyətinin qiymətləndirilməsindən asılı olaraq müəyyən edilən vəzifə (tarif) maaşı;

4.1.2. əmək şəraitinə görə ödənilən əlavələr;

4.1.3. həvəsləndirici əlavələr;

4.1.4. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, normativ hüquqi aktlarında, habelə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin qərar və əmrlərində nəzərdə tutulmuş digər ödənişlər.

## 5. Səhiyyə işçilərinin aylıq vəzifə (tarif) maaşı

5.1. Səhiyyə işçilərinin vəzifə maaşları əmək stajı və xidməti fəaliyyətinin qiymətləndirilməsi nəzərə alınmaqla Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 19 iyun 2017-ci il tarixli 8 nömrəli Qərarı ilə təsdiq edilmiş "Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası" əsasında 19 dərəcə ilə müəyyən edilir.

5.2. Səhiyyə işçilərinin aylıq vəzifə (tarif) maaşları aşağıdakı cədvəl üzrə müəyyən edilir:

| Əməyin ödənilməsi dərəcə | Aylıq tarif (vəzifə) maaşı (manatla) |
|---|---|
| 1 | 300 |
| 2 | 312 |
| 3 | 325 |
| 4 | 338 |
| 5 | 353 |
| 6 | 367 |
| 7 | 383 |
| 8 | 398 |
| 9 | 415 |

| | |
|---|---|
| 10 | 432 |
| 11 | 450 |
| 12 | 468 |
| 13 | 487 |
| 14 | 508 |
| 15 | 528 |
| 16 | 549 |
| 17 | 604 |
| 18 | 725 |
| 19 | 979 |

5.2-1. Təcili və təxirəsalınmaz tibbi yardım stansiyalarının (şöbə və bölmələrinin), təcili tibbi yardım (şöbə və bölmələrinin) rəhbərlərinin, həkimlərinin, dispetçerlərinin, orta və kiçik tibb heyəti işçilərinin, sürücülərinin, porter və xadimələrinin, qan və onun komponentlərini, habelə sümük iliyini tədarük və emal edən və dondurulmuş halda saxlanılması ilə məşğul olan müəssisələrin (şöbə və bölmələrin) işçilərinin aylıq vəzifə (tarif) maaşı 5.2-ci bəndə əlavə edilmiş cədvəldə qeyd edilən məbləğlərə 2 dəfə artım əmsalı tətbiq edilməklə müəyyən edilir.

5.3. Tibb müəssisəsi rəhbərinin müavininin, eləcə də müəssisənin struktur bölmə (şöbə, bölmə, kabinet və s.) rəhbərlərinin müavininin vəzifə (tarif) maaşı müvafiq müəssisə, bölmə (şöbə, bölmə, kabinet və s.) rəhbərlərinin vəzifə (tarif) maaşından 10 - 20 faiz aşağı müəyyənləşdirilir. Vəzifə maaşının dəqiq məbləği işçinin əmək staji, peşəkarlıq səviyyəsi və şəxsi keyfiyyətləri nəzərə alınmaqla işəgötürənin təqdimatı əsasında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.

5.4. Tibb müəssisələrinin şöbə, bölmə, kabinet, laboratoriya, dəstə, stansiya, təcili yardım yarımstansiyası, profdezinfeksiya şöbəsi (bölməsi) və digər struktur bölmələrinin həkim ixtisası tələb olunan rəhbərlərinin, habelə psixi sağlamlıq bölməsinin və pedaqoji kabinet müdirinin vəzifə maaşı bu həkimlərin dərəcələrinə uyğun vəzifə (tarif) maaşlarına və bu Qaydanın 17.1-ci bəndinə uyğun olaraq, müvafiq sahələr üzrə verilən sabit həvəsləndirici əlavələrə aşağıdakı faizlərin tətbiq edilməsi yolu ilə müəyyən edilir:

5.4.1. struktur bölmələrinin ştatında 7-dək həkim vəzifəsi olduqda - 10 faiz;

5.4.2. 7 və daha çox həkim vəzifəsi olduqda - 15 faiz;

5.4.3. həkim vəzifələrinin sayından asılı olmayaraq kabinet müdirlərinə, habelə psixi sağlamlıq bölməsinin və pedaqoji kabinet müdirlərinə - 5 faiz.

5.5. Tərkibinə bölmələr, laboratoriyalar və digər struktur bölmələri daxil olan şöbələrin həkim ixtisası tələb olunan rəhbərlərinin vəzifə (tarif) maaşları müəyyənləşdirilərkən, bu struktur bölmələrinin bütün həkim-rəhbər və həkim vəzifələri nəzərə alınır. Bu halda həkim-rezident vəzifələri həkim vəzifələrinin sayında nəzərə alınmır.

Həm stasionarda və həm də poliklinikada (ambulatoriyada) həkimlərin işinə rəhbərlik etmək vəzifəsi həvalə edilmiş həkim-şöbə müdirinin (həkim-bölmə müdirinin) vəzifə (tarif) maaşı müəyyən edilərkən, onun həm stasionarda, həm də poliklinikada rəhbərlik etdiyi həkim vəzifələrinin sayı nəzərə alınır.

*5.6. Tibb müəssisələrinin struktur bölmələrində baş tibb bacısı (qardaşı), böyük tibb bacısı (qardaşı), böyük mama, böyük feldşer, böyük laborant və təsərrüfat bacısı (qardaşı) vəzifəsində çalışanların vəzifə (tarif) maaşı onların dərəcələrinə uyğun təyin edilmiş vəzifə (tarif) maaşlarına 15 faiz və bu Qaydanın 19.1-ci bəndinə uyğun olaraq, müvafiq sahələr üzrə verilən sabit aylıq həvəsləndirici əlavələr (baş tibb bacısı (qardaşı) üçün nəzərdə tutulan sabit aylıq həvəsləndirici əlavə istisna olunmaqla) 50 faiz artımın tətbiq edilməsi yolu ilə müəyyən edilir.*

5.7. Həkim-uçuş və həkim-məsləhət komissiyalarının həkim-sədrlərinin, üzvlərinin rayon uşaq həkimlərinin, təcili yardım stansiyalarının və dağlarda xilasetmə hissələrinin böyük həkimlərinin vəzifə (tarif) maaşı bu həkimlərin Vahid Tarif Cədvəli üzrə əməyin ödəniş dərəcəsinə uyğun vəzifə (tarif) maaşlarına 15 faiz əlavənin tətbiq edilməsi yolu ilə müəyyən edilir.

5.8. Tibb müəssisələrində qazanxanaların istismarı, elektrik və istilik şəbəkələrinin avadanlığının, maşın və mexanizmlərin, cihazların və s. təmiri, bina və qurğuların cari təmiri ilə məşğul olan və bu sahələrə xidmət göstərən fəhlələrin tarif maaşları onların işəmuzd əmək haqqı sistemində 1.11, vaxtamuzd əmək haqqı sistemində isə (eləcə də, aylıq maaş olduqda) 1.04 yüksəldici sahə əmsalları tətbiq edilməklə müəyyən edilir.

5.9. Dəniz və çay gəmilərində işləyən tibb işçilərinə gəmilərin reysdə olduğu müddətdə onların arzusu ilə iş vaxtı normasından artıq işlənilmiş vaxt üçün saatlıq vəzifə (tarif) maaşının ikiqat məbləğində və ya hər artıq işlənilmiş 8 saat üçün bir əvəzgün verilməklə birqat ölçüdə əmək haqqı ödənilir.

5.10. Birləşdirilmiş mətbəxlərdə çalışan işçilərin vəzifə (tarif) maaşları 50 faiz artımın tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir.

## 6. Əmək şəraitinə görə verilən əlavələrin növləri

6.1. Səhiyyə işçilərinə əmək şəraitinə görə verilən əlavələr aşağıdakı növlərdən ibarətdir:

6.1.1. sağlamlıq üçün təhlükəli və ağır olan əmək şəraitinə görə əlavə;

6.1.2. sağlamlıq üçün xüsusilə təhlükəli və xüsusilə ağır olan əmək şəraitinə görə əlavə;

6.1.3. insanın immunçatışmazlığı sindromu (QİÇS) və ya insanın immunçatışmazlığı virusu (İİV) ilə əlaqəli əmək şəraitinə görə əlavə;

6.1.4. ixtisas dərəcəsinə görə əlavə;

6.1.5. fasiləsiz əmək stajına görə əlavə;

6.1.6. gecə vaxtı yerinə yetirilən işə görə əlavə;

6.1.7. əmək şəraitinin xüsusiyyətlərinə görə əlavə;

6.1.8. işin mürəkkəbliyinə, gərginliyinə, yüksək keyfiyyətinə və əməkdə yüksək nəticələrə görə əlavə.

**7. Sağlamlıq üçün təhlükəli və ağır olan əmək şəraitinə görə əlavələrin verilməsi şərtləri**

7.1. Sağlamlıq üçün təhlükəli və ağır olan əmək şəraitinə görə aşağıdakı səhiyyə işçilərinə hər ay vəzifə (tarif) maaşının 15 faizi miqdarında əlavə haqq ödənilir:

7.1.1. vərəm və ya vərəmə qarşı xəstəxanalarda, müalicə, reabilitasiya və digər müəssisələrdə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün hospitallarda, dispanserlərdə, sanatoriyalarda, körpələr evlərində rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, xəstələrə xidmət göstərən digər rəhbərlər (kitabxana müdiri, klub müdiri, təsərrüfat müdiri və s.), mütəxəssislər və digər qulluqçular (kitabxanaçı, evakuator və s.) və bütün peşələrdən olan fəhlələr (bərbər, qarderobçu, liftçi, dəyişək xidmətçisi və s.), eləcə də bu tibb müəssisələrinin ştatında olan aptek bölmələrində və onlara bilavasitə xidmət göstərən xəstəxana və xəstəxanalararası müstəqil aptek müəssisələrində çalışan işçilər (müdir, müdir müavini, əczaçı, provizor, qablaşdırıcı və s. köməkçi heyət);

7.1.2. vərəm və ya vərəmə qarşı tibb müəssisələrinin nəzdindəki müalicə-istehsalat (əmək) emalatxanalarında rəhbər, həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, müalicə-istehsalat (əmək) emalatxanalarında istehsalat təlimi ilə məşğul olan bütün kateqoriyadan olan işçilər;

7.1.3. müalicə-profilaktika və digər müəssisələrin, onların tibbi-sanitariya hissələrinin vərəm xəstəliyi üzrə bölmələrində, palatalarında, izolyatorlarında, kabinetlərində rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, eləcə də bu bölmələrdə, palatalarda və s. xəstələrə qulluq edən və burada işləyən bütün peşə və vəzifələrdən olan işçilər;

7.1.4. yoluxucu xəstəliklər üzrə xəstəxanalarda, xroniki dezinteriyalı xəstələr üçün uşaq sanatoriyalarında rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, xəstələrə xidmət göstərən digər rəhbərlər (kitabxana müdiri, klub müdiri, təsərrüfat müdiri və s.), mütəxəssislər və digər qulluqçular (kitabxanaçı, evakuator və s.) və bütün peşələrdən olan fəhlələr (bərbər, qarderobçu, liftçi, dəyişək xidmətçisi və s.), eləcə də bu tibb müəssisələrinin ştatında olan aptek bölmələrində və onlara bilavasitə xidmət göstərən xəstəxana və xəstəxanalararası müstəqil aptek müəssisələrində çalışan işçilər (müdir, müdir müavini, əczaçı, provizor, qablaşdırıcı və s. köməkçi heyət);

7.1.5. yoluxucu xəstəliklər və bağırsaq qurdlan ilə yoluxmuş xəstələr üçün bölmələrdə, palatalarda, gündüz stasionarda, yoluxucu xəstəliklər üzrə kabinetlərdə və vağzalların tibb məntəqələrində rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, eləcə də bu bölmələrdə, palatalarda və s. xəstələrə qulluq edən və burada işləyən bütün peşələrdən olan fəhlələr;

7.1.6. onurğa beyni zədələnməklə aşağı və ya yuxarı ətrafların parezi və çanaq orqanlarının funksiyalarının pozulması ilə müşayiət olunan xəstələr üçün tibb müəssisələrdə (onların bölmələrində, palatalarında) rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər;

7.1.7. dayaq-hərəkət aparatının funksiyaları pozulmaqla mərkəzi sinir sistemi zədələnmiş uşaqlar üçün sanatoriyalarda, eləcə də həmin profilli uşaqlar üçün müalicə-profilaktika müəssisələrinin bölmələrində, palatalarında (qruplarında) rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər;

7.1.8. əməliyyatxana, toksikologiya anesteziologiya-reanimasiya, reanimasiya və intensiv terapiya (ekspress-diaqnostikanı təmin edən laboratoriyalar, qruplar istisna olmaqla) şöbə və bölmələrində (qruplarında) rəhbər (həkim ixtisası tələb olunan), həkim-anestezioloq-reanimatoloq, tibb bacısı (qardaşı), feldşer və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər;

7.1.9. aşağıdakı şöbələrdə (palatalarda) rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, eləcə də hemodializ bölməsində aparatlara xidmət edən mütəxəssislər:

7.1.9.1. yanığı olan xəstələr üçün şöbələr (palatalar);

7.1.9.2. kəskin formada zəhərlənmiş xəstələr üçün şöbələr (palatalar);

7.1.9.3. cərrahiyyə əməliyyatı tələb edən irinləməsi və ağırlaşması olan xəstələrin müalicəsi üçün bütün profilli irinləmə cərrahiyyə şöbələri;

7.1.9.4. cərrahiyyə əməliyyatı zamanı vizual nəzarətedici rentgen aparatlarından daima istifadə edilən bütün profilli cərrahiyyə şöbələri;

7.1.9.5. hemodializ, hemosorbsiya, plazinoferez və ultrafiltrasiya üsulu ilə xəstələri müalicə edən hemodializ bölmələri;

7.1.9.6. yeni doğulmuş və yarımçıq uşaqlar üçün şöbələr (palatalar);

7.1.9.7. yeni doğulmuş və yarımçıq uşaqlar üçün pediatriya şöbələri;

7.1.9.8. beyin qan dövranı pozulmuş xəstələr üçün nevroloji şöbələr;

7.1.10. dəri-zöhrəvi xəstəliklər üzrə şöbələrdə, palatalarda, stasionarların və poliklinikaların kabinetlərində rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyətli vəzifələrində çalışan işçilər, eləcə də bu şöbələrdə, palatalarda və s. xəstələrə qulluq edən və bütün peşə və vəzifələrdən olan fəhlə və qulluqçular;

7.1.11. fizioterapiya şöbələrində, kabinetlərində, balneoloji və palçıq müalicəxanalarında (şöbələrində, kabinetlərində) aşağıdakı vəzifə və peşələrdə çalışan işçilər:

7.1.11.1. hidrogen-sulfidli, sulfidli və karbo-sulfo-hidrogenli vannalar və palçıqlar olan otaqlarda xəstələrə qulluq etmək üçün nəzərdə tutulan rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta tibb heyəti (tibbi statist, tibb qeydiyyatçısı vəzifələri istisna olmaqla) və kiçik tibb heyəti vəzifələri;

7.1.11.2. palçıq müalicəxanaları, radon vannalarının buraxılması, ozokerit prosedurlarının hazırlanması və buraxılması, müxtəlilf gücə malik ultra yüksək tezlikli (UYT) generatorlarda işləmələri üçün (ay ərzində hər növbədə orta hesabla 10-dan az olmayaraq prosedur keçirildikdə) nəzərdə tutulan orta tibb heyəti (tibbi statist, tibb qeydiyyatçısı vəzifələri istisna olmaqla) və kiçik tibb heyəti vəzifələri;

7.1.11.3. palçığın qızdırılması və gətirilməsi, süni hidrogen-sulfidli suyun hazırlanması, hidrogen-sulfidli, sulfidli və karbo-sulfo-hidrogenli, radonlu vanna otaqlarına və avadanlığa, fizioterapiya müalicəxanalarının (bölmələrinin) qurğularına, zirzəmi avadanlığına, vannalar olan

binaların qızdırıcı qurğularına, nasos stansiyalarına, suqarışdırıcılara və rezervuarlara, borulalara, hidrogen-sulfid, sulfid və karbo-sulfo-hidrogen və radon qazma quyularının başlıqlarına daima xidmət edilməsi, eləcə də bina və qurğuların cari təmiri üçün nəzərdə tutulan fəhlə peşələri;

7.1.12. müxtəlif profilli rentgen, radioloji və rentgen-radioloji şöbələrdə, bölmələrdə, laboratoriyalarda, qruplarda və kabinetlərdə rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, ion şüalanması mühitində və ya radioaktiv maddələrlə daima işləyən mütəxəssislər;

7.1.13. səhiyyə və digər müəssisələrin əsas müalicə üsulu kimi uzun müddət böyük dozada kimyəvi preparatlar işlədilən şöbələrində (palatalarında) rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər;

7.1.14. patoloji anatomiya bölmələrində, meyit toxumalarını, üzvlərini və qanını tədarük (konservasiya) edən bölmələrdə rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər;

7.1.15. barokamera və kessonlarda, yeraltı tibb müəssisələri bölmələrində (palatalarında), səhiyyə məntəqələrində, tibb məntəqələrində (o cümlədən, metropoliten tikililərində olan) rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər;

7.1.16. ultrasəs diaqnostikası və endoskopiya bölmələrində (kabinetlərində) rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər;

7.1.17. qanköçürmə stansiyalarında, qan və onun komponentlərini tədarük edən bölmələrdə qan komponentlərini və sümük iliyini tədarük edən və dondurulmuş halda saxlanılması ilə məşğul olan rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta tibb heyəti, vəzifələrində çalışan işçilər;

7.1.18. ambulator-poliklinika müəssisələrinin (bölmələrinin) psixoterapiya kabinetlərində həkim-psixoterapevt və tibb bacısı(qardaşı) vəzifələri;

7.1.19. laboratoriyalarda (şöbələrdə, bölmələrdə) aşağıdakı əmək şəraitli iş yerlərində çalışan işçilər:

7.1.19.1. yoluxucu xəstəliklərin canlı törədiciləri ilə (və ya xəstə heyvanlarla) işləyən rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan bütün kateqoriyadan olan işçilər;

7.1.19.2. xəstəlik törədən viruslarla, kimyəvi reaktivlərlə, reaktiv allergenlərlə, qanın, sidiyin və s. analizləri üçün istifadə edilən maddələrlə işləyən rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələri;

7.1.19.3. solğun treponla immobilizasiya reaksiyası qoymaq işində daimi işləyən həkim-bakterioloq, həkim-parazitoloq, laborant, bakteriologiya və parazitologiya üzrə laborant, onların işini təmin etmək üçün nəzərdə tutulan sanitar qadın və digər vəzifələr;

7.1.20. kar-lal uşaqlar üçün reabilitasiya mərkəzlərində rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, bütün peşələrdən olan fəhlələr;

7.1.21. sanitariya-profilaktika müəssisələrində, digər müəssisələrin sanitariya-profilaktika bölmə, şöbə və hissələrində aşağıdakı vəzifə və peşələrdə çalışan işçilər:

7.1.21.1. müəssisə rəhbəri (həkim-epidemioloq vəzifəsi olmadıqda), çox təhlükəli yoluxucu epidemiyaya qarşı, epidemioloji, parazitoloji, bakterioloji, virusoloji, sanitar-karantin, sanitar-nəzarət, dezinfeksiya şöbələrinin, bölmələrinin və məntəqələrinin (profilaktik dezinfeksiya şöbələri, bölmələri istisna olmaqla) müdirləri, həkim-epidemioloq, həkim-dezinfeksionist, həkim-parazitoloq, həkim-virusoloq, çox təhlükəli yoluxucu, sanitar-karantin, sanitar-nəzarət şöbələrinin, bölmələrinin həkimləri, elektromaqnit sahəli laboratoriyaların müdirləri, sanitar həkimləri, mühəndisləri, metropolitenlərin sanitar-epidemioloji stansiyalarının (şöbələrinin, qruplarının) ventilyasiya üzrə mühəndis vəzifələri, kommunal gigiyena və əmək gigiyenası üzrə sanitar həkimlər, açıq civə aparatlarında (o cümlədən, polyaroqraflara xidmət etməklə məşğul olan) işləmək üçün nəzərdə tutulan həkim-laborant və mühəndis vəzifələri, toksikoloji laboratoriyaların həkim-laborantları, yalnız dağ-mədən, filizçıxarma və kimya sənayesi müəssisələrində zərərli əmək şəraitində çalışan işçilərə xidmət etməklə məşğul olan əmək gigiyenası üzrə sanitar həkimlər;

7.1.21.2. çox təhlükəli yoluxucu xəstəliklər üzrə şöbələrin, bölmələrin və məntəqələrin orta tibb heyəti vəzifələri, dezinfeksiyanın keyfiyyətinə nəzarət edən laborantlar, virusologiya və parazitologiya üzrə laborantlar, sanitar-karantin və sanitar-nəzarət şöbələrinin (bölmələrinin, məntəqələrinin) orta tibb heyəti vəzifələri, dezinfektorlar, dezinfeksiya təlimatçıları, həkim-epidemioloqların və həkim-parazitoloqların köməkçiləri, sanitar həkimlərin köməkçiləri, elektromaqnit sahəli laboratoriyaların texnikləri və laborantları, kommunal gigiyena və əmək gigiyenası üzrə sanitar bölmələrinin (qruplarının), eləcə də metropolitenlərin sanitar-epidemioloji stansiyalarının (bölmələrinin, qruplarının) texnikləri, laborantları və sanitar həkimlərinin köməkçiləri, açıq civə aparatlarında işləmək üçün nəzərdə tutulan (o cümlədən, polyaroqraflara xidmət etməklə məşğul olan) laborant və texniklər, yoluxucu xəstəliyi olan xəstələr daşımaqla məşğul olan orta tibb heyəti, toksikolojii laboratoriyaların laborantları, yalnız dağ-mədən, filizçıxarma və kimya sənayesi müəssisələrində zərərli əmək şəraitində çalışan işçilərə xidmət etməklə məşğul olan əmək gigiyenası üzrə sanitar həkimlərin köməkçiləri;

7.1.21.3. çox təhlükəli yoluxucu xəstəliklər üzrə şöbələrin (bölmələrin), acıq civə aparatlarında işləmək üçün nəzərdə tutulan (o cümlədən, polyaroqraflara xidmət etməklə məşğul olan) sanitar-karantin və sanitar-nəzarət bölmələrinin (şöbələrinin, məntəqələrinin), toksikoloji, bakterioloji laboratoriyaların, parazitoloji və virusoloji bölmələrin sanitar qadın vəzifəsində çalışan işçiləri, dezinfeksiyaedici vasitələri qablaşdırmaqla məşğul olan anbardarlar, dezinfektor vəzifəsi də həvalə edilən avtomobil sürücüləri, yoluxucu xəstəliyə tutulmuş xəstələri daşımaqla məşğul olan avtomobil sürücüləri və sanitar qadınlar, xəstəliyə yoluxmuş heyvanlarla vivariumda işləyən fəhlə və qulluqçular;

7.1.22. 1000 və daha çox çarpayısı olan çoxprofilli xəstəxanaların həkim-psixiatorları;

7.1.23. tibb müəssisələrdə (bölmələrdə) dezinfektorlar;

7.1.24. tibb müəssisələrində meymun volyerlərə qulluq eləmək üçün nəzərdə tutulan vəzifə və peşələrdə çalışan işçilər;

7.1.25. müxtəlif tipli və təyinatlı ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər.

**8. Sağlamlıq üçün xüsusilə təhlükəli və xüsusilə ağır olan əmək şəraitinə görə əlavələrin verilməsi şərtləri**

8.1 Sağlamlıq üçün xüsusilə təhlükəli və xüsusilə ağır olan əmək şəraitinə görə aşağıdakı səhiyyə işçilərinə hər ay vəzifə (tarif) maaşının 20 faizi miqdarında əlavə haqq ödənilir:

8.1.1. cüzama (tauna) qarşı şöbə, palata, izolyator, kabinet, məntəqələrdə calışan bütün işçilər;

8.1.2. mərkəzi sinir sistemi zədələnməklə psixikası pozulmuş uşaqlar üçün şöbə və palatalarda, kəskin alkoqol zəhərlənməsi və ya kəskin alkoqol psixozu nəticəsində zərər dəymiş şəxslərə tibbi yardım göstərmək üçün nəzərdə tutulan müalicə profilaktika müəssisələrinin ixtisaslaşmış qəbul şöbələrində rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, xəstələrə xidmət edən bərbərlər və digər peşələrdən olan fəhlələr;

8.1.3. psixikası zədələnməklə mərkəzi sinir sisteminin üzvi xəstəlikləri olan uşaq qruplarında orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər;

8.1.4. psixi, xroniki alkoqolizmə və narkomaniyaya düçar olmuş xəstələri müalicə edən şöbə, kabinet və palatalarda, o cümlədən müalicə-istehsalat (əmək) emalatxanalarında, yardımçı təsərrüfatlarda rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta tibb heyəti (arxivlərdə tibb qeydiyyatçısı istisna olmaqla) və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, xəstələrlə təmasda olan digər rəhbər, mütəxəssis və texniki icraçılar, eləcə də xəstələrə qulluq edən və şöbələrin (bölmələrin) daxilində fəhlə peşələrində çalışan işçilər;

8.1.5. daima barocərrahiyyə otaqlarında həkim, orta və kiçik tibb heyəti vəzifələrində, eləcə də digər peşə və vəzifələrdə çalışan işçilər;

8.1.6. tibb müəssisələrinin şaxtalarda dezinfeksiya işləri ilə məşğul olan dezinfektorları;

8.1.7. təcili tibbi yardım stansiyalarının (bölmələrinin) psixi xəstələrə tibbi yardım göstərən və onları daşıyan ixtisaslaşmış briqadalarında həkim, orta və kiçik tibb heyəti vəzifələrində çalışan işçilər, eləcə də avtomobil sürücüləri;

8.1.8. dəri-zöhrəvi dispanserlərinin stasionarlarında (bölmələrində) peşə və vəzifələrdə çalışan bütün işçilər;

8.1.9. elmi-tədqiqat institutunun, mərkəzinin, klinikasının hipnoz və psixoprofilaktika laboratoriyasında rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində, eləcə də digər peşə və vəzifələrdə çalışan işçilər.

8.2. Sağlamlıq üçün təhlükəli ağır və xüsusilə təhlükəli ağır olan bir neçə tibbi sahə üzrə çalışan işcinin 7-ci və 8-ci hissələr üzrə iki və daha çox əsaslarla vəzifə (tarif) maaşına əlavə haqq almaq hüququ olduqda, əlavənin həcmi 25 faiz miqdarında müəyyənləşdirilir.

8.3. Müəyyən edilmiş qaydada həkim və ya orta tibb heyəti işçilərinə bərabər tutularaq onlarla birgə 7-ci və ya 8-ci hissədə göstərilən tibb müəssisələrində (bölmələrində) çalışan mütəxəssislərə (zooloqlara, entomoloqlara və s.) müvafiq olaraq vəzifə (tarif) maaşının 15 və ya 20 faizi miqdarında əlavə haqq ödənilir.

8.4. Əmək haqqı vaxtamuzd ödəniş sistemləri üzrə həyata keçirildikdə, 7-ci, 8-ci və 9-cu hissələrdə göstərilən əlavələr iş vaxtına mütənasib olaraq ödənilir.

**9. İnsanın immunçatışmazlığı sindromu (QİÇS) və ya insanın immunçatışmazlığı virusu (İİV) ilə əlaqəli əmək şəraitinə görə əlavələrin verilməsi şərtləri**

9.1. QİÇS və ya İİV ilə əlaqəli əmək şəraitinə görə aşağıdakı səhiyyə işçilərinə hər ay vəzifə (tarif) maaşının 60 faizi miqdarında əlavə haqq ödənilir:

9.1.1. QİÇS xəstəliyinə tutulmuş və ya İİV virusuna yoluxmuş xəstələrin diaqnostikası, müalicəsi və bilavasitə onlara qulluq etməklə məşğul olan rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində, eləcə də digər peşə və vəzifələrdə çalışan işçilər;

9.1.2. QİÇS xəstəliyinə tutulmuş və ya İİV virusuna yoluxmuş xəstələri müalicə edən tibb müəssisələrinin və ya tibb müəssisələrinin ixtisaslaşmış bölmələrində QİÇS xəstəliyinə tutulmuş və ya İİV virusuna yoluxmuş xəstələrin müalicəsi və bilavasitə onlara qulluq etməklə məşğul olan rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində, eləcə də digər peşə və vəzifələrdə çalışan işçilər;

9.1.3. səhiyyə və digər müəssisələrdə və ya onların bölmələrində QİÇS xəstəliyinə tutulmuş və ya İİV virusuna yoluxmuş xəstələrə məsləhətlər verən, baxan, tibbi yardım göstərən və s. işləri yerinə yetirən rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində, eləcə də digər peşə və vəzifələrdə çalışan işçilər (bu kontingentlə bilavasitə kontaktda olduqları faktiki iş vaxtına mütənasib olaraq);

9.1.4. QİÇS xəstəliyinə tutulmuş və ya İİV virusuna yoluxmuş xəstələrin qanlarını və bioloji mayelərini tədqiq edən, İİV virusu üzrə laboratoriya tədqiqatı aparmaqla əhaliyə xidmət göstərən tibb müəssisələrinin bölmələrində, qruplarında, laboratoriyalarında rəhbər (həkim ixtisası tələb olunan), həkim, orta və kiçik tibb heyəti vəzifələrində, eləcə də digər peşə və vəzifələrdə çalışan işçilər;

9.1.5. elmi müəssisə və təşkilatlarda QİÇS xəstəliyi və ya İİV virusu problemlərinə dair dissertasiya yazan şəxslər, QİÇS xəstəliyinə tutulmuş və ya İİV virusuna yoluxmuş xəstələr və materiallar (eləcə də heyvanlar) ilə təmasda olan elmi rəhbərlər, elmi bölmələrin mütəxəssisləri, elmi işçilər, eləcə də elmi bölmələrdə digər mütəxəssis, qulluqçu vəzifələrində, preparatorçu və fəhlə peşələrində (o cümlədən, heyvanlara qulluqedən) çalışan işçilər;

9.1.6. elmi müəssisə və təşkilatlarda, onların struktur bölmələrində, eləcə də bakteriya və virus preparatları hazırlanan sexlərdə bilavasitə QİÇS xəstəliyi və ya İİV virusuna yoluxdurulmuş materiallarla işləyən bütün kateqoriyadan olan işçilər.

**10. İxtisas dərəcəsinə görə əlavələrin verilməsi şərtləri**

10.1. Tibbi xidmət sahəsində yüksək iş təcrübəsi ilə fərqlənən rəhbər (həkim, provizor və digər tibb ixtisası tələb olunan), həkim və orta tibb heyəti vəzifələrində çalışan səhiyyə işçilərinə müvafiq qaydada ali, birinci və ikinci ixtisas dərəcələri verilir.

10.2. İxtisas dərəcəsi olan işçiyə hər ay aşağıdakı miqdarda əlavə haqq ödənilir:

10.2.1. ali ixtisas dərəcəsinə görə – vəzifə (tarif) maaşının 25 faizi miqdarında;

10.2.2. birinci ixtisas dərəcəsinə görə – vəzifə (tarif) maaşının 15 faizi miqdarında;

10.2.3. ikinci ixtisas dərəcəsinə görə – vəzifə (tarif) maaşının 10 faizi miqdarında.

10.3. İxtisas dərəcəsinə görə əlavə haqq ixtisas dərəcəsinin hansı ixtisasa görə verilməsindən asılı olmayaraq ixtisas dərəcəsinin qüvvədə olduğu müddətdə (sonuncu ay tam nəzərə alınmaqla) ixtisas dərəcəsinin alındığı növbəti aydan başlayaraq ödənilir.

10.4. Tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**11. Fasiləsiz əmək stajına görə əlavələrin verilməsi şərtləri**

11.1. Ayrı-ayrı tibb müəssisələrində çalışan səhiyyə işçilərinə fasiləsiz əmək stajına görə hər ay aşağıdakı miqdarda əlavə haqq ödənilir:

| **Tibb müəssisələrinin peşə və vəzifələrinin adları** | **Fasiləsiz əmək stajına görə əlavə haqq (vəzifə (tarif) maaşından faizlə)** |
|---|---|
| Kənd və qəsəbə yerlərindəki sahə xəstəxanalarının, ambulatoriyaların, o cümlədən xətti xəstəxanaların və ambulatoriyaların rəhbər (həkim ixtisası tələb olunan) və ixtisasından asılı olmayaraq həkim vəzifələri | fasiləsiz əmək stajının ilk üç ilinə və sonrakı hər iki ilinə görə 10 faiz miqdarında, lakin 40 faizdən çox olmayaraq |
| Şəhər poliklinikalarının (bölmələrinin), o cümlədən Ailə Sağlamlıq Mərkəzində və kənd və qəsəbə məntəqələrində, rayonlarının mərkəzi rayon xəstəxanalarının poliklinikalarının, mərkəzi rayon xəstəxanasının funksiyaları həvalə edilmiş mərkəzi rayon poliklinikalarının, ərazi sahələrinin ailə/sahə həkim-terapevti və ailə/sahə həkim-pediatrı, o cümlədən orta tibb işçiləri | fasiləsiz əmək stajının ilk üç ilinə və sonrakı hər iki ilinə görə 10 faiz miqdarında, lakin 30 faizdən çox olmayaraq |
| Tibb-sanitar hissələrinin sex həkim sahəsinin həkim-terapevti | fasiləsiz əmək stajının ilk üç ilinə və sonrakı hər iki ilinə görə 10 faiz |

| | |
|---|---|
| | miqdarında, lakin 20 faizdən çox olmayaraq |
| Dəmir yolu, su və hava nəqliyyatının poliklinikalarının sex həkim sahəsinin həkim-terapevti | fasiləsiz əmək stajının ilk üç ilinə və sonrakı hər iki ilinə görə 10 faiz miqdarında, lakin 20 faizdən çox olmayaraq |
| Təcili tibbi yardım müəssisəsinin, stansiyasının, bölməsinin səyyar briqadalarının həkimi və orta tibb heyəti vəzifələri, iş növbəsinin böyük həkimi (Təcili və Təxirəsalınmaz Tibbi Yardım şöbəsinin təcili yardım bölməsi istisna olmaqla) | fasiləsiz əmək stajının ilk üç ilinə və sonrakı hər iki ilinə görə 10 faiz miqdarında, lakin 30 faizdən çox olmayaraq* |
| Sanitar aviasiyası stansiyalarının, səhiyyə sisteminin respublika xəstəxanalarının planlı və fövqəladə məsləhət yardım bölmələrinin səyyar briqadalarının ixtisasından asılı olmayaraq həkimi və orta tibb heyət vəzifələri | fasiləsiz əmək stajının ilk üç ilinə və sonrakı hər iki ilinə görə 10 faiz miqdarın, lakin 30 faizdən çox olmayaraq |
| Dəmir yolu və su nəqliyyatının poliklinika müəssisələrinin (bölmələrinin), eləcə də iqtisadiyyatın digər sahələrinin təhkim olunmuş ərazinin əhalisinə tibbi yardım göstərilməsi həvalə edilən tibb müəssisələrinin terapiya və pediatriya bölmələrinin müdiri, ailə/sahə həkim-terapevti, ailə/sahə həkim-pediatrı və ərazi sahələrinin tibb bacısı(qardaşı) | fasiləsiz əmək stajının ilk üç ilinə və sonrakı hər iki ilinə görə 10 faiz miqdarında, lakin 30 faizdən çox olmayaraq |
| İqtisadiyyatın digər sahələrinin ambulator poliklinika müəssisələrinin terapiya və pediatriya bölmələrinin müdiri, ailə/sahə həkim-terapevti, ailə/sahə həkim-pediatrı və ərazi sahələrinin sahə tibb bacısı(qardaşı) | fasiləsiz əmək stajının ilk üç ilinə və sonrakı hər iki ilinə görə 10 faiz miqdarında, lakin 30 faizdən çox olmayaraq |
| Ən təhlükəli yoluxucu xəstələrlə mübarizə aparan struktur bölmələrinin bütün kateqoriyadan olan tibb heyəti, qulluqçu vəzifələri və fəhlə peşələri | fasiləsiz əmək stajının hər ilinə görə 10 faiz miqdarında, lakin tibbi heyət üçün 80 faizdən, digər işçilər üçün isə 60 faizdən çox olmayaraq |
| Cüzam xəstəliyinə qarşı mübarizə bölmələrinin bütün kateqoriyadan olan tibbi heyəti, qulluqçu vəzifələri və fəhlə peşələri | fasiləsiz əmək stajının 3 ildən 5 ilədək olduqda 15 faiz, 5 ildən 10 ilədək olduqda 25 faiz, 10 ildən çox olduqda isə 50 faiz miqdarında |

11.2. Fasiləsiz əmək stajına görə əlavə haqq işçiyə bu əlavəni almaq hüququ verən vəzifədə (peşədə) çalışdıqda ödənilir.

Səyyar təcili tibbi yardım stansiyalarının (bölmələrinin) orta tibb heyəti vəzifələrindən çağırışların qəbulu və onların səyyar briqadalara ötürülməsi üzrə feldşerlərə (tibb bacılarına(qardaşlarına)) və yaxud təcili yardım yarımstansiyasının böyük feldşer vəzifələrinə keçirilmiş işçilərinə keçmə anına kimi fasiləsiz əmək stajına görə ödənilən əvvəlki əlavə haqq saxlanılır.

11.3. Bu hissə ilə nəzərdə tutulmuş staja görə əlavələrin dəqiq məbləğləri işçinin əmək staji, peşəkarlıq səviyyəsi və şəxsi keyfiyyətləri nəzərə alınmaqla tibb müəssisəsinin rəhbərliyi tərəfindən müəyyən edilir.

**12. Gecə vaxtı yerinə yetirilən işə görə əlavələrin verilməsi şərtləri**

*12.1. Tibb müəssisələrinin bilavasitə cərrahlıq, reanimasiya, mamalıq, ginekologiya və təcili yardım sahələrində (bölmə, şöbə, stansiya, kabinet və s.) gecə işlərinə cəlb edilən həkim, orta və kiçik tibb heyəti işçilərinə, eləcə də sanitar avtomobillərin sürücülərinə gecə vaxtında yerinə yetirilən işin hər saatına görə saatlıq vəzifə (tarif) maaşının 50 faizi, digər işçilərinə isə vəzifə (tarif) maaşının 35 faizi miqdarında əlavə haqq ödənilir.*

12.2. Tibb müəssisələrinin gecə vaxtı yerinə yetirilən işlərə cəlb edilən digər işçilərinə, habelə çoxnövbəli iş rejimində çalışan işçilərinə gecə vaxtı və çoxnövbəli iş rejiminə görə əlavə haqq qüvvədə olan mövcud qanunvericiliyə əsasən ödənilir.

**13. Əmək şəraitinin xüsusiyyətlərinə görə əlavələrin verilməsi şərtləri**

13.1. Ayrı-ayrı səhiyyə işçilərinə əmək şəraitinin xüsusiyyətlərindən asılı olaraq vəzifə (tarif) maaşının aşağıdakı faizi miqdarında əlavə haqq ödənilir:

13.1.1. müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün hospitalların, pansionatların, əlilliyi olan şəxslərin bərpa müəssisələrinin tibb və əczaçılıq işçilərinə 15 faiz, digər işçilərinə isə - 10 faiz;

13.1.2. magistral boru kəməri və yeni dəmir yolu çəkən inşaatçılara, neft və qazın nəql edilməsi, eləcə də dəniz obyektlərinin qurulması və istismarı ilə məşğul olan işçilərə xidmət edən tibb və əczaçılıq işçilərinə -15 faiz;

13.1.3. tibb müəssisələrində qızıl qəbul edən işçilərə -15 faiz;

13.1.4. ildə 5 tondan artıq plazma emal edən qanköçürmə stansiyalarında texnoloji prosesdə məşğul olan fəhlələrə - 10 faiz;

13.1.5. zibil quyularından çıxmış murdar və bərk töküntüləri daşıyan arabaçıya - 10 faiz, bu quyuları özü təmizləyən arabaçıya isə - 15 faiz;

13.1.6. dişlərin hazırlanmasında qiymətli metallar tətbiq edilməklə texniki işləri yerinə yetirən dişdüzəldənlərə və digər işçilərə - 25 faiz.

13.2. Ali tibb təhsili və həkimləri təkmilləşdirmə müəssisələrinin klinik kafedralarında çalışan və bilavasitə əhaliyə tibbi xidmətlərin göstərilməsində müalicə və diaqnostika işlərinə cəlb edilən işçilərə aşağıdakı məbləğlərdə əlavə haqq ödənilir:

13.2.1. professor və dosentlərə - yüksək ödəniş dərəcəli həkim mütəxəssisin vəzifə (tarif) maaşının 50 faizi miqdarında;

13.2.2. assistentlərə - müvafiq ödəniş dərəcəli həkim-mütəxəssisin vəzifə (tarif) maaşının 50 faizi miqdarında.

13.2.3. hemodializ şöbəsində çalışan işçilərə - aylıq vəzifə maaşının 50 faizi miqdarında.

**14. İşin mürəkkəbliyinə, gərginliyinə, yüksək keyfiyyətinə və əməkdə yüksək nəticələrə görə əlavələrin verilməsi şərtləri**

14.1. Tibb müəssisələrinin bütün kateqoriyadan olan işçilərinə elmi nailiyyətlərin və qabaqcıl iş üsullarının tətbiqinə, işin mürəkkəbliyinə, gərginliyinə və yüksək keyfiyyətinə görə və yaxud əməkdə yüksək nəticələrinə və xüsusi əhəmiyyətli (təcili) işlərin vaxtında yerinə yetirilməsinə görə vəzifə (tarif) maaşının müəyyən faizi miqdarında həvəsləndirici xarakter daşıyan əlavələr ödənilə bilər. Bu halda əmək haqqına əlavənin miqdarı (vəzifə (tarif) maaşının 50 faizindən yuxarı olmamaq şərtilə) və təyin edilmə müddəti bu məqsədlər üçün ayrılmış büdcə təxsisatları çərçivəsində müəssisənin fərdi qaydada ünvanlanmış müraciətinə əsasən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin qərarına uyğun olaraq müəyyən edilir.

14.2. Tibb müəssisəsinin yerləşdiyicoğrafi xüsusiyyətlər (dağlıq zona, cəbhə zonası müasir infrastruktura malik olmayan ərazilər və s.) nəzərə alınmaqla İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin qərarına əsasən həmin müəssisələrinin rəhbərlərinə və həkim heyətində bu Qaydada nəzərdə tutulmuş həvəsləndirici əlavələrdən daha yüksək məbləğdə həvəsləndirici əlavələr ödənilər bilər.

14.3. Tibb müəssisələrində qabaqcıl iş üsullarının tətbiqi, kadr potensialının gücləndirilməsi, tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin qərarına əsasən əmək haqları fərdi qaydada müəyyən olunmaqla həkim mütəxəssislərin cəlb edilməsinə yol verilir.

**15. Həvəsləndirici əlavələr**

15.1. Səhiyyə işçilərinin əməyində iqtisadi səmərəliliyin təmin edilməsi və işin nəticələrinə maddi marağının gücləndirilməsi məqsədilə tibb müəssisələrində tibb və qeyri-tibb işçisinin xidməti fəaliyyətinin iqtisadi və kəmiyyət göstəricilərinə əsasən bu Qaydanın 16-19-cu hissələrinə uyğun olaraq aylıq həvəsləndirici əlavələr verilir.

15.2. Həkimlərin vəzifə öhdəliklərinin xarakterindən və müvafiq həkim ixtisası (vəzifəsi) üzrə pasiyent müraciətinin qeydiyyatı xüsusiyyətlərindən asılı olaraq həkimlərə həvəsləndirici əlavələr sabit aylıq həvəsləndirici əlavələr və ya işin nəticələrinə görə aylıq həvəsləndirici əlavələr şəklində verilir.

**16. Tibb müəssiəsinin rəhbərliyinə və qeyri-tibb işçilərinə aylıq həvəsləndirici əlavələrin verilməsinin ümumi şərtləri**

16.1. Tibb müəssisələrinin rəhbərliyinə və qeyri-tibb işçilərinə (direktor, direktorun müavinləri, direktorun köməkçisi, maliyyə və qeyri-tibb üzrə şöbə müdirləri, qeyri-tibb üzrə şöbə müdirinin müavini, maliyyə və qeyri-tibb üzrə bölmə müdirləri, maliyyə və qeyri-tibb üzrə digər vəzifələr) verilən aylıq həvəsləndirici əlavələrin məbləğləri bilavasitə tibb müəssisəsinin fəaliyyətinin göstəricilərindən asılı olaraq müəyyənləşdirilir.

16.2. Bu Qaydanın 16.3-cü bəndinin şərtləri nəzərə alınmaqla, tibb müəssisələri 3 qrupa bölünür (1-ci, 2-ci və 3-cü qruplar), öz növbəsində 1-ci qrup A, B, C, 2-ci və 3-cü qruplar isə A, B, C və D kateqoriyalarına ayrılır.

16.3. Tibb müəssisələrinin bu Qaydanın 16.2-ci bəndində göstərilən qrup və kateqoriyalara aid edilməsi meyarları bu Qaydanın Əlavəsinə uyğun olaraq müəyyən edilir.

16.4. Tibb müəssəsinin rəhbərliyinə və qeyri-tibb işçilərinə verilən aylıq həvəsləndirici əlavələrin məbləği aşağıdakı cədvəl üzrə müəyyən edilir:

| **Sıra nömrəsi** | **Vəzifənin adı** | **Təsnifat qrupu** | **Tibb müəssisəsinin qrup və kateqoriyası** | **Aylıq həvəsləndirici əlavələrin məbləği (manat)** |
|---|---|---|---|---|
| **1.** | Direktor (müəssisə rəhbəri) | 3-cü qrup | A kateqoriya | 12 500,00 |
| | | | B kateqoriya | A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 80%-dək. |
| | | | C kateqoriya | A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 60%-dək. |
| | | | D kateqoriya | A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 50%-dək. |
| | | 2-ci qrup | A kateqoriya | 3-cü qrup A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 60%-dək. |
| | | | B kateqoriya | 3-cü qrup A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 50%-dək. |

| | | | | |
|---|---|---|---|---|
| | | | C kateqoriya | 3-cü qrup A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 35%-dək. |
| | | | D kateqoriya | 3-cü qrup A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 20%-dək. |
| | | 1-ci qrup | A kateqoriya | 3-cü qrup A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 50%-dək. |
| | | | B kateqoriya | 3-cü qrup A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 35%-dək. |
| | | | C kateqoriya | 3-cü qrup A kateqoriya üzrə direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 20%-dək. |
| 2. | Direktorun (müəssisə rəhbərinin) müavini | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | Direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 80 ~~50~~%-dək. |
| 3. | Baş həkim | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | Direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 40%-dək. |
| 4. | Elmi Katib | 3-cü qrup | Hər bir kateqoriya üzrə | Direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 40%-dək. |
| 5. | Direktorun müşaviri | 3-cü qrup | Hər bir kateqoriya üzrə | Direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 10-12%-dək |
| 6. | Direktorun (müəssisə rəhbərinin) köməkçisi | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | Direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 7%-dək |

| | | | | |
|---|---|---|---|---|
| 7. | Şöbə müdiri maliyyə | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | Direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 16-25%-dək |
| 8. | Şöbə müdiri-qeyri tibb | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | Direktorun (müəssisə rəhbərinin) həvəsləndirici əlavəsinin 10-16%-dək |
| 9. | Şöbə müdirinin müavini | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | Şöbə müdirinin həvəsləndirici əlavəsinin 65-75%-dək |
| 10. | Bölmə müdiri | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | Şöbə müdirinin həvəsləndirici əlavəsinin 20-40%-dək |
| 11. | Digər işçilər (Səhiyyə xidmətinin təşkili şöbəsi istisna olmaqla) | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | Şöbə müdirinin həvəsləndirici əlavəsinin 5-35%-dək |
| 12. | Biomedikal bölməsinin rəhbəri | 1-ci qrup tibb müəssisələri | Hər bir kateqoriya üzrə | 200,00 manat |
| | | 2 və 3-cü qrup tibb müəssisələri | | 200,00-1200,00 manat |
| 13. | Biomedikal bölməsinin digər işçiləri | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | Bölmə müdirinin əlavəsinin 70%-dək |
| 14. | İnformasiya texnologiyaları üzrə mütəxəssis | 1-ci qrup tibb müəssisələri | Hər bir kateqoriya üzrə | 200,00 manat |
| | | 2 və 3-cü qrup tibb müəssisələri | | 250,00-800,00 manat |
| 15. | İnformasiya texnologiyaları üzrə texnik | 1-ci qrup tibb müəssisələri | Hər bir kateqoriya üzrə | 100,00 manat |

| | | | | |
|---|---|---|---|---|
| | | 2 və 3-cü qrup tibb müəssisələri | | 150,00-400,00 manat |
| 16. | Hüquqşünas | 1-ci qrup tibb müəssisələri | Hər bir kateqoriya üzrə | 250,00 manat |
| | | 2 və 3-cü qrup tibb müəssisələri | | 250,00-900,00 manat |
| 17. | Müharibə iştirakçıları ilə iş üzrə mütəxəssislər | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | 350,00 manat |
| 18. | Psixoloq, loqoped və pedaqoq, müalicəvi bədən tərbiyəsi üzrə mütəxəssis ~~(təlimatçı)~~ vəzifəsində çalışanlar | Bütün təsnifat qrupları üzrə | Hər bir kateqoriya üzrə | 500,00 manat |

16.5. Bu Qaydanın 16.4-cü bənddə nəzərdə tutulmuş əlavələrin dəqiq məbləği işçinin əmək staji, peşəkarlıq səviyyəsi və şəxsi keyfiyyətləri nəzərə alınmaqla İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla müəyyən edilir.

### 17. Həkimlərə sabit aylıq həvəsləndirici əlavələrin verilməsinin ümumi şərtləri

17.1. Vəzifə öhdəliklərinin xarakterini və müvafiq həkim ixtisası (vəzifəsi) üzrə pasiyent müraciətinin qeydiyyatı xüsusiyyətlərini nəzərə alaraq, aşağıda göstərilən ixtisaslarlara(vəzifələrə) görə sabit aylıq həvəsləndirici əlavələrin məbləği aşağıdakı cədvəl üzrə müəyyən edilir:

| **Sıra nömrəsi** | **İxtisasın/vəzifənin adı** | **Həkimlərin əməkhaqlarına tətbiq edilən aylıq sabit həvəsləndirici əlavələrin məbləği** |
|---|---|---|
| *1.* | *Tibbi şöbələrin (bölmələrin, kabinetlərin) müdirləri (həkim-stomatoloqlar istisna olmaqla)* | *200,00 manat* |

<table>
<tr><td>2.</td><td>Səhiyyə xidmətlərinin təşkili şöbəsinin həkimləri (həkim-stomatoloq istisna olmaqla)</td><td colspan="2">500,00 manat</td></tr>
<tr><td>3.</td><td>Farmakonəzarət üzrə məsul şəxs</td><td colspan="2">400,00 manat</td></tr>
<tr><td>4.</td><td>Farmakonəzarət üzrə məsul şəxsin müavini</td><td colspan="2">300,00 manat</td></tr>
<tr><td>5.</td><td>Provizor vəzifəsi üzrə çalışan həkimlər</td><td colspan="2">400,00 manat</td></tr>
<tr><td>6.</td><td>Ailə (sahə) həkimi vəzifəsi üzrə çalışan həkimlər</td><td colspan="2">500,00 manat</td></tr>
<tr><td>7.</td><td>Təcili və təxirəsalınmaz tibbi yardım stansiyalarının (şöbə və bölmələrinin), təcili tibbi yardım şöbə və bölmələrinin həkimləri, o cümlədən qan və onun komponentlərini, habelə sümük iliyini tədarük və emal edən və dondurulmuş halda saxlanılması ilə məşğul olan müəssisələrdə (şöbə və bölmələrdə) çalışan həkim mütəxəssislər</td><td colspan="2">250,00 manat</td></tr>
<tr><td>8.</td><td>Həkim-statistik və həkim-metodist vəzifəsi üzrə çalışan həkimlər</td><td colspan="2">500,00 manat</td></tr>
<tr><td>9.</td><td>Statistika bölməsinin rəhbəri vəzifəsində çalışan həkim</td><td colspan="2">600,00 manat</td></tr>
<tr><td rowspan="2">10.</td><td rowspan="2">Aptek bölümünün rəhbəri vəzifəsi üzrə çalışan həkim</td><td>1-ci qrup tibb müəssisələri</td><td>450,00 manat</td></tr>
<tr><td>2 və 3-cü qrup tibb müəssisələri</td><td>650,00 manat</td></tr>
<tr><td>11.</td><td>Digər ixtisaslı həkimlər (Səhiyyə xidmətlərinin təşkili şöbəsinin həkimləri, o cümlədən Təcili və təxirəsalınmaz tibbi yardım stansiyalarının (şöbə və bölmələrinin), təcili tibbi yardım şöbə və bölmələrinin həkimləri, həkim-stomatoloqlar və  qan və onun komponentlərini, habelə sümük iliyini tədarük və emal edən və dondurulmuş halda saxlanılması ilə məşğul olan müəssisələrdə (şöbə və bölmələrdə) çalışan həkim-mütəxəssislər istisna olmaqla)</td><td colspan="2">800,00 manat</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| *12.* | Keyfiyyətə nəzarətin idarəedilməsi komitəsinin rəhbəri | 1-ci qrup tibb müəssisələri | 500,00 manat |
| | | 2 və 3-cü qrup tibb müəssisələri | 500,00 -1000,00 manat |

17.2. Kənd və qəsəbələrdə Ailə Sağlamlıq Mərkəzində ailə həkimi ixtisasları üzrə çalışan həkimlərin iş yeri yaşayış yerindən 10 - 40 km məsafədə yerləşdikdə, nəqliyyat, yaşayış və digər xərclərin qarşılanması məqsədilə 17.1-ci bənddə onlar üçün nəzərdə tutulmuş əlavə 100,00 manat məbləğində artırılır.

17.3. Kənd və qəsəbələrdə Ailə Sağlamlıq Mərkəzində ailə həkimi ixtisasları üzrə çalışan həkimlərin iş yeri yaşayış yerindən 40 km-dən artıq məsafədə yerləşdikdə, nəqliyyat, yaşayış və digər xərclərin qarşılanması məqsədilə 17.1-ci bənddə onlar üçün nəzərdə tutulmuş əlavə 150,00 manat məbləğində artırılır.

17.3-1. Tibb müəsissələrində fəaliyyət göstərən həkim məsləhət komissiyasının üzvlərinə aylıq sabit 200,00 manat həvəsləndirici əlavə ödənilir.

17.3-2. İlkin hərbi qeydiyyata alma komissiyalarının üzvlərinə və çağırış komissiyasının işinə cəlb olunmuş həkim-mütəxəssislərə komissiyaların fəaliyyətində iştirak etdikləri dövrdə aylıq sabit 500,00 manat məbləğində həvəsləndirici əlavə ödənilir.

*17.3-3. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin “18” sentyabr 2020-ci il tarixli “24” nömrəli Qərarı ilə yaradılmış “B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə Komissiya”sına TƏBİB-in tabeliyindəki tibb müəssisələrindən üzv təyin olunmuş həkim-mütəxəssislərə aylıq sabit 200,00 manat həvəsləndirici əlavə ödənilir*.

17.6. Avtomobil sürücülərinə peşəkarlıq səriştəsindən və işgüzar keyfiyyətlərindən asılı olaraq 1-ci sinif avtomobil sürücülərinə tarif (vəzifə) maaşının 25 faizi, 2-ci sinfə isə tarif (vəzifə) maaşının 10 faizi miqdarında əlavə ödənililir.

17.7. Bu Qaydanın 17.1-ci bəndinin 11-ci sətrində (2 və 3-cü qrup tibb müəssisələri) nəzərdə tutulmuş əlavənin dəqiq məbləği işçinin əmək stajı, peşəkarlıq səviyyəsi və şəxsi keyfiyyətləri nəzərə alınmaqla işəgötürənin təqdimatı əsasında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla müəyyən edilir.

Qeyd: Avtomobil sürücülərinə ixtisas siniflərinin verilməsi zamanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 30 mart 2015-ci il tarixli 3 nömrəli Qərarı ilə təsdiq edilmiş “Avtomobil sürücülərinə ixtisas sinfinin verilmə Qaydaları”nın tələbləri rəhbər tutulur.

**17-1. Tibb müəssisələrinin elmi şöbələrində çalışan işçilərinin əmək haqlarına sabit aylıq həvəsləndirici əlavələrin müəyyən edilməsi**

Tibb müəssisələrinin elmi şöbələrində çalışan işçilərinin əmək haqlarına sabit aylıq həvəsləndirici əlavələrin məbləği aşağıdakı cədvəl üzrə müəyyən edilir:

| Sıra nömrəsi | İxtisasın/vəzifənin adı | Aylıq sabit həvəsləndirici əlavələrin məbləği (manat) |
|---|---|---|
| 1 | Elmi şöbənin (bölmənin) müdiri | 500,00 |
| 2 | Baş elmi işçi | 400,00 |
| 3 | Aparıcı elmi işçi | 350,00 |
| 4 | Böyük elmi işçi | 300.00 |
| 5 | Elmi işçi | 250,00 |
| 6 | Kiçik elmi işçi | 200,00 |
| 7 | Laborant (böyük laborant daxil olmaqla) | 150,00 |
| 8 | Qeyri-tibb işçiləri | 100,00 |

**18. Həkimlərə işin nəticələrinə görə aylıq həvəsləndirici əlavələrin verilməsinin ümumi şərtləri**

18.1. Bu Qaydaların 18.3-cü bəndinə uyğun olaraq tibb müəssisələrində çalışan həkimlərin göstərdikləri tibbi xidmətlərin ölçülməsi və dəyərləndirilməsi məqsədilə həkimlərə işin nəticələrinə görə aylıq həvəsləndirici əlavələr verilir.

18.2. Optimal iş yükünü və iş saatlarını nəzərə alaraq işin nəticələrinə görə aylıq həvəsləndirici əlavərin ödənilməsi ilə əlaqədar tibbi xidmətlərin yuxarı kəmiyyət həddi müəyyənləşdirilir və yuxarı kəmiyyət həddini aşaraq göstərilən tibbi xidmətlərə görə əlavələr ödənilmir.

18.3. Həkimlərə verilən işin nəticələrinə görə aylıq həvəsləndirici əlavələrin məbləği aşağıdakı cədvəl üzrə müəyyən edilir:

| **Sıra nömrəsi** | **İxtisasın və ya vəzifənin adı** | **Yuxarı kəmiyyət həddi** | **İşin nəticələrinə görə aylıq həvəsləndirici əlavələrin məbləği** |
|---|---|---|---|
| 1. | *Terapiya və pediatriya ixtisasları üzrə çalışan həkimlər* | *Ambulator fəaliyyət üzrə həkim üçün iş günü həddi:*<br>*35 nəfər sığortaolunandan yuxarı olmamaq şərtilə həkim müayinəsinin (ixtisaslı həkim baxışı) aparılması* | Tətbiq edilən tarifin 8%-i həcmində |
| | | Stasionar fəaliyyət üzrə hər həkim üçün təqvim ayı həddi:<br>60 nəfər sığortaolunandan yuxarı olmamaq şərtilə həkim təqibinin aparılması | Tətbiq edilən tarifin 5%-i həcmində |
| 2. | *Həkim-mama-ginekoloq və bütün cərrahi ixtisaslar üzrə çalışan həkimlər* | *Ambulator fəaliyyət üzrə hər həkim üçün iş günü həddi:*<br>*30 nəfər sığortaolunandan yuxarı olmamaq şərtilə (əməliyyata göndərilən sığorta olunan pasiyentlər istisna olmaqla) həkim müayinəsinin (ixtisaslı həkim baxışı) aparılması* | İxtisaslı həkim baxışına tətbiq edilən tarifin 8%-i həcmində |
| | | | Cərrahi prosedurlar üzrə tətbiq edilən tarifin 15%-i həcmində |
| | | Stasionar fəaliyyət üzrə hər həkim üçün təqvim ayı həddi:<br>Hədd müəyyən olunmur | Tətbiq edilən tarifin 15%-i həcmində |
| | | Konservativ Stasionar müalicə fəaliyyət üzrə hər həkim üçün təqvim ayı həddi: | Tətbiq edilən tarifin 5%-i həcmində |

| | | | |
|---|---|---|---|
| | | 60 nəfər sığortaolunandan yuxarı olmamaq şərtilə həkim təqibinin aparılması | |
| 3. | Cərrahi ixtisaslar üzrə çalışan asistent həkimlər | Stasionar fəaliyyət üzrə hər həkim üçün asistent fəaliyyətinə görə təqvim ayı həddi:<br>60 əməliyyatdan yuxarı olmamaq şərtilə sığortaolunana əməliyyatın həyata keçirilməsi | Tətbiq edilən tarifin 3%-i həcmində |
| | | Stasionar fəaliyyət üzrə hər həkim üçün asistent fəaliyyətinə görə təqvim ayı həddi:<br>Sığorta olunan hesab edilməyən şəxslərin əməliyyatı zamanı hədd müəyyən olunmur | Tətbiq edilən tarifin 3%-i həcmində |
| 4. | Həkim-anestezioloq-reanimatoloq ixtisası üzrə çalışan həkimlər | Həkim fəaliyyəti üzrə hər anesteziyaya görə aparılmış xidmətlər üçün hədd:<br>Hədd müəyyən olunmur | Tətbiq edilən tarifin 5%-i həcmində |
| 5. | Neonatologiya bölməsində çalışan həkimlər | Stasionar fəaliyyət üzrə həkim üçün yenidoğulana görə təqvim ayı həddi:<br>Hədd müəyyən olunmur | Tətbiq edilən tarifin 7%-i həcmində |
| 6. | Terapevtik və cərrahi ixtisaslar üzrə çalışan həkimlər | Sığorta olunan hesab edilməyən şəxslərə ixtisaslı həkim müayinəsi üçün iş günü həddi:<br>Hədd müəyyən edilmir | Tətbiq edilən tarifin 15%-i həcmində |
| | | Sığorta olunan hesab edilməyən şəxslərə cərrahi prosedur və əməliyyatlar üçün təqvim ayı həddi: | Tətbiq edilən tarifin 30%-i həcmində |

| | | | |
|---|---|---|---|
| | | Hədd müəyyən edilmir | |
| 7. | Həkim-stomatoloq ixtisası üzrə çalışan həkimlər | Həkim üçün təqvim ayı həddi:<br><br>Hədd müəyyən edilmir | Tətbiq edilən tarifin 60%-i həcmində, lakin göstərilən xidmətə sərf olunan tibbi ləvazimat xərci çıxıldıqdan sonra |
| 8. | *Struktur bölmə rəhbəri vəzifəsində çalışan həkimlər* | *Müvafiq tibbi xidmətlərin göstərilməsi nəticəsində verilən arayışlara (obliqat qrupların dövri tibbi müayinələri üzrə verilən arayışlar və hərbi xidmətə çağırılanların tibbi müayinəsi ilə bağlı arayışlar istisna olmaqla) və tibbi çıxarışlara görə hər həkim üçün təqvim ayı həddi:*<br><br>*Hədd müəyyən olunmur* | Tətbiq edilən tarifin 5%-i həcmində |
| 9. | *Ultrasəs müayinə üzrə çalışan həkimlər* | *Həkim üçün iş günü üzrə hədd:*<br><br>*30 nəfər sığortaolunandan yuxarı olmamaq şərtilə diaqnostik müayinənin aparılması* | Tətbiq edilən tarifin 8%-i həcmində |
| 10. | EEQ (Elektroensefaloqrafiya), EMQ (Elektromioqrafiya) və endoskopik müayinə ixtisasları üzrə çalışan həkimlər | Həkim üçün iş günü üzrə hədd:<br><br>15 nəfər sığortaolunandan yuxarı olmamaq şərtilə diaqnostik müayinənin aparılması | Tətbiq edilən tarifin 10%-i həcmində |
| 11. | MRT (Maqnit rezonans tomoqrafiya), müayinəsi üzrə çalışan həkimlər | Həkim üçün iş günü həddi:<br><br>Hədd müəyyən olunmur | Tətbiq edilən tarifin 8%-i həcmində |
| 12. | KT (Kompyuter tomoqrafiya) üzrə çalışan həkimlər | Həkim üçün iş günü həddi:<br><br>Hədd müəyyən olunmur | Tətbiq edilən tarifin 10%-i həcmində |

| | | | |
|---|---|---|---|
| 13. | Rentgen, Mamoqrafiya və Flüoqrafiya müayinəsi üzrə çalışan həkimlər | Həkim üçün iş günü həddi:<br>35 nəfər sığortaolunandan yuxarı olmamaq şərtilə diaqnostik müayinənin aparılması | Tətbiq edilən tarifin<br>Rentgen və Mamoqrafiya müayinəsi üzrə 10%-i, Flüoqrafiya müayinəsi üzrə 14%-i həcmində |
| 14. | Həkim-kardioloq ixtisası üzrə çalışan həkimlər | EKQ (elektrokardioqramma) çəkilişləri üzrə rəyin verilməsinə görə həkim üçün iş günü həddi:<br>Hədd müəyyən olunmur | Tətbiq edilən tarifin 10%-i həcmində |

18.4. Qaydanın 18.3-cü bəndi ilə müəyyən olunan həvəsləndirici əlavələrin məbləğinə *(sığorta olunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlər üzrə tətbiq edilən işin nəticələrinə görə həvəsləndirici əlavələr istisna olmaqla)* tibb müəssisələrinin qrup və kateqoriyalarına uyğun aşağıdakı əmsallar tətbiq edilir:

18.4.1. 3-cü qrup A kateqoriyalı tibb müəssisələri – 1.5;

18.4.2. 3-cü qrup B kateqoriyalı tibb müəssisələri – 1.4;

18.4.3. 3-cü qrup C kateqoriyalı və 2-ci qrup A kateqoriyalı tibb müəssisələri – 1.3;

18.4.4. 3-cü qrup D kateqoriyalı və 2-ci qrup B kateqoriyalı tibb müəssisələri – 1.2.

*18.4-1. Anesteziologiya, reanimasiya və intensiv terapiya, toksikologiya şöbələrində, intensiv terapiya bloklarında/bölmələrində çalışan həkimlər üçün növbə zamanı tibbi xidmət göstərilən hər pasiyent üçün 5 manat, hər gecə növbəsi üçün 30 manat məbləğində əlavələr hesablanır.*

18.5. Tibb müəssisəsində ixtisaslı həkimlər fəaliyyət göstərmədiyi təqdirdə, həmin ixtisas həkimlərinin səlahiyyətlərinə aid olan cərrahi əməliyyatlar ümumi cərrah ixtisası üzrə çalışan həkimlər tərəfindən icra olunur. Bu halda işin nəticələrinə görə aylıq həvəsləndirici əlavələr həmin ixtisaslı həkimlər üçün nəzərdə tutulmuş qaydada hesablanır. Əks halda ümumi cərrah ixtisası üzrə çalışan həkimlərə işin nəticələrinə görə həvəsləndirici əlavə ödənilmir.

### 18-1. Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonunun inzibati ərazi vahidlərində yerləşən tibb müəssisələrində bəzi ixtisaslar üzrə çalışan həkimlərin əmək haqlarına müvəqqəti həvəsləndirici əlavələrin verilməsi

Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonunun inzibati ərazi vahidlərində yerləşən tibb müəssisələrində aşağıdakı ixtisaslar üzrə çalışan həkimlərin vəzifə öhdəliklərinin xarakterini nəzərə alaraq, onlara ödənilən aylıq müvəqqəti həvəsləndirici əlavələrin məbləği aşağıdakı cədvəl üzrə müəyyən edilsin:

| Sıra nömrəsi | İxtisasın/vəzifənin adı | Həkimlərin əməkhaqlarına tətbiq edilən aylıq müvəqqəti əlavələrin məbləği |
|---|---|---|
| 1. | Stasionar və eyni zamanda a-poliklinik xidmət göstərən həkimlər (ambulator-poliklinik fəaliyyətinə görə) | 300,00 manat |
| 2. | Yalnız ambulator-poliklinik xidmət göstərən həkimlər | 500,00 manat |
| 3. | Şüa diaqnostikası ixtisası üzrə çalışan həkimlər | 600,00 manat |

**19. Orta və kiçik tibb işçilərinin sabit aylıq həvəsləndirici əlavələrin verilməsinin ümumi şərtləri**

19.1. Orta və kiçik tibb işçilərinə *(təcili və təxirəsalınmaz tibbi yardım stansiyalarında (şöbə və bölmələrində), təcili tibbi yardım şöbə və bölmələrində, qan və onun komponentlərini, habelə sümük iliyini tədarük və emal edən və dondurulmuş halda saxlanılması ilə məşğul olan müəssisələrdə (şöbə və bölmələrdə) çalışanlar istisna olmaqla)* verilən aylıq sabit həvəsləndirici əlavələrin məbləği aşağıdakı cədvəl üzrə müəyyən edilir:

| Sıra nömrəsi | Struktur vahidin/vəzifənin adı | Əlavələrin məbləği |
|---|---|---|
| **ORTA TİBB İŞÇİLƏRİ (HEYƏTİ)** | | |
| 1. | Anesteziologiya, reanimasiya, intensiv terapiya, toksikologiya şöbəsi (Laborant vəzifəsində çalışan işçilər istisna olmaqla), statistika və əməliyyatxanada çalışan orta tibb işçiləri (Əməliyyatxanada texnik vəzifəsində çalışan işçilər istisna olmaqla), o cümlədən əczaçılar | 160,00 manat |
| 2. | Anesteziologiya, reanimasiya, intensiv terapiya, toksikologiya şöbəsi, əməliyyatxana şöbəsi/bölməsi istisna olmaqla bütün stasionar şöbələr, Hemodializ, Laboratoriya, Fizioterapiya şöbələri, Radiologiya və Şüa-diaqnostika | 110,00 manat |

<table>
<tr><td></td><td>şöbələrində texnik vəzifəsində çalışan, habelə Reanimasiya şöbəsində laborant vəzifəsində çalışan orta tibb işçiləri</td><td colspan="2"></td></tr>
<tr><td rowspan="2">3.</td><td rowspan="2">Ailə Sağlamlıq Mərkəzində çalışan orta tibb işçiləri</td><td>Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun inzibati ərazi vahidlərində yerləşən tibb müəssisələri üzrə</td><td>100,00 manat</td></tr>
<tr><td>Digər inzibati ərazi vahidlərində yerləşən tibb müəssisələri üzrə</td><td>80,00 manat</td></tr>
<tr><td>4.</td><td>Poliklinika, Radiologiya, Şüa-diaqnostika (Radiologiya və Şüa-diaqnostika şöbələrində texnik vəzifəsində çalışan işçilər istisna olmaqla) şöbələrində, Yoluxucu xəstəliklər və Vərəm şöbələrində stasionar xidmət göstərən, Nevroloji Sanatoriya və Sanatoriya-Kurort tipli bölmələrdə orta tibb işçiləri</td><td colspan="2">80,00 manat</td></tr>
<tr><td>5.</td><td>Əməliyyatxana bölməsində əməliyyatxana texniki vəzifəsində çalışan orta tibb işçiləri</td><td colspan="2">60,00 manat</td></tr>
<tr><td rowspan="2">6.</td><td rowspan="2">Baş tibb bacısı (qardaşı) və baş mama vəzifəsində çalışan orta tibb işçisi</td><td>1-ci qrup tibb müəssisələri</td><td>350,00 manat</td></tr>
<tr><td>2 və 3-cü qrup tibb müəssisələri</td><td>350,00-900,00 manat</td></tr>
<tr><td>6-1.</td><td>Tərbiyəçi, əmək terapiyası üzrə təlimatçı və müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı vəzifəsində çalışanlar</td><td colspan="2">200,00 manat</td></tr>
<tr><td colspan="4">KİÇİK TİBB İŞÇİLƏRİ (HEYƏTİ)</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| 7. | Anesteziologiya, Reanimasiya və intensiv terapiya şöbəsi, toksikologiya şöbəsi, uşaq intensiv terapiya şöbəsi/bölməsi və Cərrahiyyə şöbəsinin Əməliyyatxana bölməsində çalışan kiçik tibb işçiləri | 60,00 manat | |
| 8. | Cərrahiyyə, Doğum və Ginekologiya, Fizioterapiya, Hemodializ,Ailə Sağlamlıq Mərkəzi, Laboratoriya, Uşaq, Poliklinika, Radiologiya, Şüa-diaqnostika, Terapiya, şöbələri, Yoluxucu xəstəliklər və Vərəm şöbələrində stasionar xidmət göstərən Nevroloji Sanatoriya və Sanatoriya-Kurort tipli bölmələrdə çalışan kiçik tibb işçiləri, texnik (dəstək xidmətləri şöbəsində çalışanlar istisna olmaqla), xadimə, porter, bufetçi və liftçi vəzifəsində çalışan qeyri-tibb işçiləri | Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun inzibati ərazi vahidlərində yerləşən tibb müəssisələri üzrə | 50,00 manat |
| | | Digər inzibati ərazi vahidlərində yerləşən tibb müəssisələri üzrə | 40,00 manat |
| 9. | Baş təsərrüfat bacısı (qardaşı) vəzifəsində çalışan kiçik tibb işçisi | 1-ci qrup tibb müəssisələri | 150,00 manat |
| | | 2 və 3-cü qrup tibb müəssisələri | 210,00 manat |

19.2. Kənd və qəsəbələrdə Ailə Sağlamlıq Mərkəzində çalışan orta və kiçik tibb işçilərinin iş yeri yaşayış yerindən 10 - 40 km məsafədə yerləşdikdə, nəqliyyat, yaşayış və digər xərclərin qarşılanması məqsədilə 19.1-ci bənddə onlar üçün nəzərdə tutulmuş əlavə 100,00 manat məbləğində artırılır.

19.3. Kənd və qəsəbələrdə Ailə Sağlamlıq Mərkəzində çalışan orta və kiçik tibb işçilərinin iş yeri yaşayış yerindən 40 km-dən artıq məsafədə yerləşdikdə, nəqliyyat, yaşayış və digər xərclərin qarşılanması məqsədilə 19.1-ci bənddə onlar üçün nəzərdə tutulmuş əlavə 150,00 manat məbləğində artırılır.

## 20. Həvəsləndirici əlavələrin ödənilməsinin xüsusi şərtləri

20.1. Səhiyyə işçilərinə həvəsləndirici əlavələrin ödənilməsi üçün xüsusi şərtlər aşağıdakılardır:

20.1.1. əmək müqaviləsində göstərilmiş vəzifə öhdəliklərinin keyfiyyətlə və vaxtında yerinə yetirilməsi;

20.1.2. tibb müəssisəsinin maddi resurslarından effektiv, səmərəli və rasional şəkildə istifadəsinin təmin edilməsi;

20.1.3. əmək intizamına və müəssisədaxili intizam qaydalarına əməl edilməsi;

20.1.4. işçiyə əmək qanunvericiliyində nəzərdə tutulmulş intizam tənbehinin verilməməsi;

20.1.5. normativ hüquqi aktların tələblərinə riayət edilməsi, əməyin təhlükəsizliyi normalarına əməl edilməsi;

20.1.6. gigiyena qaydalarının və tələblərinin gözlənilməsi;

20.1.7. tibbi və digər sənədlərin düzgün tərtib edilməsi, hesabatlılıqda nöqsanlara və təhriflərə yol verilməməsi;

20.1.8. pasiyentlər və qurumlar tərəfindən əsaslı şikayətlərinin daxil olmaması;

20.1.9. tibbi etika və deontologiya qaydalarına əməl edilməsi;

20.1.10. rəhbərliyin tapşırıqlarının vaxtında və keyfiyyətlə icra edilməsi.

20.2. Tibb müəssisəsinin rəhbəri bu Qaydanın 20.1-ci bəndində nəzərdə tutulmuş pozulması nəticəsində işçinin həvəsləndirici əlavəsinin verilməməsi və ya məbləğinin azadılması barədə bu Qaydanın 21-ci hissəsinə uyğun olaraq qərar qəbul edə bilər.

20.3. Həvəsləndirici əlavənin verilməməsi və ya məbləğinin azaldılması bu Qaydan 17-ci və 19-cu hissələrində nəzərdə tutulan səhiyyə işçilərinə münasibətdə pozuntunun aşkar olunduğu ay üzrə, 18-ci hissədə nəzərədə tutulan səhiyyə işçilərinə münasibətdə isə ponzutunun aşkar olunduğu tibbi xidmət üzrə tətbiq olunur.

20.4. Həvəsləndirici əlavənin azadılması barədə qərar qəbul edilərsə, azaldılmış məbləğ həvəsləndirici əlavə üzrə məbləğin 50 faizindən çox təşkil edə bilməz.

20.5. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanunun 15-26-cı maddəsinə əsasən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən aparılan ekspertizalar nəticəsindədəyəri ödənilməmiş tibbi xidmətlər üzrə müvafiq əlavələr hesablanmır və ödənilmir.

## 21. Həvəsləndirici əlavələrin verilməməsi və ya məbləğinin azaldılması qaydası

21.1. Bu Qaydanın 20.1-ci bəndində nəzərdə tutulmuş tələblər səhiyyə işçisi tərəfindən pozularsa, bu halda tibb müəssisəsinin rəhbəri tərəfindən məsələ ilkin araşdılması üçün Tibbi Şuranın müzakirəsinə çıxarılır.

21.2. Tibbi Şura məsələnin hərtərəfli, qərəzsiz və ədalətli araşdırılmasını təmin etməli, aşkar olunmuş pozuntunun xarakterini və təhlükəlilik dərəcəsini müəyyənləşdirməlidir. Yerli həmkarlar ittifaqanın nümayənlədələrinin araşdırmaya cəlb edilməsi təmin olunur.

21.3. Tibbi Şura araşdırma zamanı işçinin şəxsiyyətini, kollektivdə nüfuzunu, peşəkarlıq səviyyəsini, onun törətdiyi xətanın xarakterini nəzərə almalıdır.

21.4. Tibbi Şura araşdırma nəticəsində pozuntunun baş verib-verməməsi haqqında akt tərtib etməklə tibb müəssisəsinin rəhbərinə təqdim edir.

21.5. Tibbi Şuranın rəyinə əsasən pozuntunun baş verməsi müəyyən edildiyi hallarda tibb müəssisənin rəhbəri səhiyyə işçisinin həvəsləndirici əlavələrinin bu Qaydanın 20.3-cü və 20.4-cü bəndlərinin tələblərinə uyğun olaraq verilməməsi və ya məbləğinin azadılması barədə qərar verir və bununla bağlı müvafiq əmr imzalayır.

**22. Elmi dərəcələrə və elmi adlara görə ödənilən əlavələrin məbləğləri**

22.1. Səhiyyə işçilərinə bilavasitə ixtisası üzrə çalışdıqları hallarda, elmi dərəcə və elmi adlara görə aşağıdakı məbləğlərdə əlavələr ödənilir:

22.1.1. elmlər doktoru elmi dərəcəsinə görə - 100 manat;

22.1.2. fəlsəfə doktoru elmi dərəcəsinə görə - 60 manat.

“Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik
hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində

çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası”na
Əlavə

**“Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin qrup və kateqoriyalara bölünməsi meyarları**

1. “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində (bundan sonra – tibb müəssisələri) çalışan səhiyyə işçilərinin əmək haqlarının formalaşdırılmasında ədalətlilik prinsipinin təmin olunması məqsədilə tibb müəssisələri 3 qrupa və hər bir qrup üzrə müvafiq olaraq aşağıdakı kateqoriyalara bölünür:
    - 1.1. I qrup – ilkin səhiyyə xidməti göstərən tibb müəssisələri[1]: A, B, C;
    - 1.2. II qrup – ümumi profilli tibb müəssisələri[2]: A, B, C, D;
    - 1.3. III qrup – çoxprofilli[3] və elmi-tədqiqat tibb müəssisələri: A, B, C, D.

2. Tibb müəssisələrinin fəaliyyəti ilə əlaqədar kəmiyyət və keyfiyyət göstəriciləri əsasında qrup və kateqoriyalara mənsubiyyəti üzrə qiymətləndirmə meyarları müəyyən olunur:
    - 2.1. Kəmiyyət meyarları;
        - 2.1.1. Çarpayıların sayı;
        - 2.1.2. Həkimlərin faktiki sayı;
        - 2.1.3. Günlük orta müraciətlərin sayı;
        - 2.1.4. İllik stasionar cərrahi əməliyyatların sayı;
        - 2.1.5. Tibbi avadanlıqların mövcudluğu:
            - 2.1.5.1. USM;
            - 2.1.5.2. Rentgen;
            - 2.1.5.3. Flüoqrafiya;
            - 2.1.5.4. Dopler;
            - 2.1.5.5. EEQ;
            - 2.1.5.6. Mobil rentgen – C-qol;
            - 2.1.5.7. KT;
            - 2.1.5.8. MRT;
            - 2.1.5.9. Laporoskop;
            - 2.1.5.10. Angioqrafiya.

---

[1] İlkin səhiyyə xidmət göstərən tibb müəssisələri – bu Qaydaların məqsədləri üçün “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanunun 32-ci maddəsinə uyğun olaraq ilkin tibbi sanitariya xidmətlərini göstərən tibb müəsissələr.

[2] Ümumi profilli tibb müəssisələri – bu Qaydaların məqsədləri üçün bir neçə tibb istiqaməti üzrə fəaliyyət göstərən stasionar tipli tibb müəssisələri.

[3] Çoxprofilli tibb müəssisələri – bu Qaydaların məqsədləri üçün geniş çeşidli xəstəliklərin müalicə və müayinəsinə yönəlmiş və eyni zamanda hər bir tibbi istiqaməti üzrə müvafiq şöbələrin digər istiqamətlər üzrə də ixtisaslaşmasını təmin edən tibb müəssisələri.

2.2. Keyfiyyət meyarları:

2.2.1. Orta yatış günləri;

2.2.2. Həkim ixtisaslarının faktiki sayı;

2.2.3. Ordinatura və (və ya) Türkiyə Respublikasında uzmanlıq bitirmiş həkim-mütəxəssislərin sayı;

2.2.4. Laboratoriyalarda aparılan analizlərin çeşidlilik səviyyəsi;

2.2.5. Təqdim olunan reyestr məlumatlarında xəta payı.

3. Müvafiq meyarların hər biri üzrə maksimal 10 bal olmaqla tibb müəssisələri 100 ballıq sistemlə qiymətləndirilir.

4. Hər bir meyar üzrə qiymətləndirmənin aparılması məqsədilə tibb müəssisələrinin qruplarına, o cümlədən III qrup tibb müəssisələrinə münasibətdə elmi-tədqiqat və çoxprofilli tibb müəssisələri fərqləndirilməklə aşağıda qeyd olunan çəki əmsalları tətbiq olunur:

| **Sıra №** | **Meyarlar** | **I qrup** | **II qrup** | **III qrup** | |
|---|---|---|---|---|---|
| | | | | **Elmi-tədqiqat** | **Çoxprofilli tibb müəssisələri** |
| 1. | Çarpayıların sayı | 0% | 10% | 0% | 10% |
| 2. | Həkimlərin faktiki sayı | 20% | 10% | 15% | 10% |
| 3. | Günlük orta müraciətlərin sayı | 20% | 10% | 0% | 10% |
| 4. | İllik stasionar cərrahi əməliyyatların sayı | 0% | 10% | 20% | 10% |
| 5. | Tibbi avadanlıqların mövcudluğu: | 15% | 10% | 15% | 10% |
| 5.1. | USM | 10% | 10% | 10% | 10% |
| 5.2. | Rentgen | 10% | 10% | 10% | 10% |
| 5.3. | Flüoqrafiya | 10% | 10% | 10% | 10% |
| 5.4. | Dopler | 10% | 10% | 10% | 10% |
| 5.5. | EEQ | 10% | 10% | 10% | 10% |
| 5.6. | Mobil rentgen – C-qol | 10% | 10% | 10% | 10% |
| 5.7. | KT | 10% | 10% | 10% | 10% |
| 5.8. | MRT | 10% | 10% | 10% | 10% |
| 5.9. | Laporoskop | 10% | 10% | 10% | 10% |
| 5.10. | Angioqrafiya | 10% | 10% | 10% | 10% |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6. | Orta yatış günləri | 0% | 10% | 0% | 10% |
| 7. | Həkim ixtisaslarının faktiki sayı | 10% | 10% | 10% | 10% |
| 8. | Uzmanlıq və klinik ordinatura üzrə həkim-mütəxəssislərin sayı | 15% | 10% | 10% | 10% |
| 9. | Laboratoriya səviyyəsi | 20% | 10% | 15% | 10% |
| 10. | Təqdim olunan reyestr məlumatlarında xəta payı | 0% | 10% | 15% | 10% |

5. Tibb müəssisələrinin qrup və kateqoriyalarının müəyyən olunması məqdəsilə təyin olunmuş meyarlara əsasən aşağıdakı cədvəldə qeyd olunan göstəricilər üzrə müvafiq ballar toplanılır:

| **Sıra №** | **Meyarlar** | **Göstəricilər** | | | | |
|---|---|---|---|---|---|---|
| | | **ballar** | | | | |
| | | **2** | **4** | **6** | **8** | **10** |
| 1. | Çarpayıların sayı | ≤150 | 151-300 | 301-450 | 451-600 | >600 |
| 2. | Həkimlərin faktiki sayı | ≤50 | 51-100 | 101-150 | 151-200 | >200 |
| 3. | Günlük orta müraciətlərin sayı | ≤500 | 501-1000 | 1001-1500 | 1501-2000 | >2000 |
| 4. | İllik stasionar cərrahi əməliyyatların sayı | ≤1000 | 1001-2000 | 2001-3000 | 3001-4000 | >4000 |
| 5. | Tibbi avadanlıqların mövcudluğu: | ≤39 % | 40-59 % | 60-79 % | 80-99 % | 100% |
| 5.1. | USM | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |
| 5.2. | Rentgen | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |
| 5.3. | Flüoqrafiya | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |
| 5.4. | Dopler | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |
| 5.5. | EEQ | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |
| 5.6. | Mobil rentgen – C-qol | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |
| 5.7. | KT | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |
| 5.8. | MRT | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 5.9. | Laporoskop | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |
| 5.10. | Angioqrafiya | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur | var/yoxdur |
| 6. | Orta yatış günləri | >11 | 7.1-9 | 7.1-9 | 5-7 | <5 |
| 7. | Həkim ixtisaslarının faktiki sayı | ≤10 | 11-20 | 21-30 | 31-40 | >40 |
| 8. | Uzmanlıq və klinik ordinatura üzrə həkim-mütəxəssislərin sayı | ≤5 | 6-10 | 11-15 | 16-20 | >20 |
| 9. | Laboratoriya səviyyəsi | 1 | 2 | 3 | 4 | 5 |
| 10. | Təqdim olunan reyestr məlumatlarında xəta payı | >20 % | 16-20% | 11-15 % | 5-10 % | <5 % |

6. Əlavənin 2.1.5-ci yarımbəndində göstərilən avadanlıqların hər biri üzrə tibb müəssisəsində mövcudluğuna əsasən müvafiq çəki əmsalları toplanılır və yekunda müvafiq göstərici əldə edilir.

7. Tibb müəssisələrinin müvafiq qrup və kateqoriyalara mənsubiyyətinin müəyyən olunması məqsədilə bu Əlavənin 4-cü və 5-ci hissəsində qeyd olunan müvafiq ballar və çəki əmsalları aşağıdakı qaydada istifadə olunmaqla ümumi toplanılan ballar hesablanır:

$$Q = 10 * \sum_{k=1}^{n} p_k(x) * q_k(x)$$

Burada:

Q – ümumi toplanılan ballar;

$p_k(x)$ – Əlavənin 4-cü hissəsində qeyd olunan tibb müəssisələrinin qruplarına uyğun çəki əmsalları;

$q_k(x)$– Əlavənin 5-ci hissəsində qeyd olunan göstəricilərə uyğun ballar;

k – qiymətləndirmə meyarlarının sayı.

8. Qaydanın 7-ci hissəsinə əsasən toplanan balların cəminə əsasən tibb müəssisələri aşağıdakı kateqoriyalara aid edilir:

8.1. I qrup tibb müəssisələri;

8.1.1. A kateqoriya üzrə - 40 baldan yuxarı toplayan tibb müəssisələri,

8.1.2. B kateqoriya üzrə - 31 – 40 bal toplayan tibb müəssisələri,

8.1.3. C kateqorita üzrə - 30 bal və daha az toplayan tibb müəssisələri.

8.2. II qrup tibb müəssisələri;

8.2.1. A kateqoriya üzrə - 75 baldan yuxarı toplayan tibb müəssisələri,

8.2.2. B kateqoriya üzrə - 56 – 75 bal toplayan tibb müəssisələri,
8.2.3. C kateqoriya üzrə - 36 – 55 bal toplayan tibb müəssisələri,
8.2.4. D kateqoriya üzrə - 35 bal və daha az toplayan tibb müəssisələri

8.3. III qrup tibb müəssisələri;

8.3.1. A kateqoriya üzrə - 91 və daha çox bal toplayan tibb müəssisələri,
8.3.2. B kateqoriya üzrə - 81 – 90 bal toplayan tibb müəssisələri,
8.3.3. C kateqoriya üzrə - 71 – 80 bal toplayan tibb müəssisələri,
8.3.4. D kateqoriya üzrə - 70 bal və daha az toplayan tibb müəssisələri.